31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

Ümummilli həmrəyliyimiz dünənki, bugünkü və gələcək qələbələrimizin mənəvi zəminidir

Müstəqillik dövründən bəri hər ilimiz Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə başa çatır. İlin son günü – 31 dekabr dünyanın harasında olmağımızdan asılı olmayaraq bütün soydaşlarımızın nəzərləri suveren vətənimiz olan doğma Azərbaycan Respublikasına yönəlir.

Həmrəylik insanların əsrlər boyu arzuladığı, həyat haqqında düşüncələrində yaşatdığı və daim ona doğru can atdıqları elə bir ictimai şüur səviyyəsidir ki, buna nail olan xalqlar xoşbəxt və firavan yaşamaq arzularına qovuşurlar. Həmrəylik bütün uğurların açarıdır. Qələbəyə, xoşbəxtliyə, firavanlığa, səadətə və nəhayət, qlobal harmoniyaya açılan qapılar, məhz insanlararası həmrəyliyə əsaslanır.

Milli, eyni zamanda bəşəri səciyyə daşıyan həmrəylik yalnız sağlam düşüncə, ədalətli məqsəd və saf niyyət əsasında doğulur. Saxta ideallar, qərəzli məqsədlər və bəd niyyətlər üzərində həmrəyliyə nail olmaq mümkün deyil. Bunu dərk etmək üçün haradan gəlib hara yetişdiyimizə baxmaq kifayətdir. 70 il bizə "həmrəylik" təlqin edən sovet ideologiyası yüz milyonlarla insanı "həmrəng" etməyə çalışdı, amma həmrəyləşdirə bilmədi. Azadlığımızı qazandıq, müstəqilliyimizi bərpa etdik, amma həmrəyliyimizin olmaması səbəbindən torpaqlarımızı itirdik. Həmrəyliyimizi tapanadək nə azadlığımıza, nə də torpaqlarımıza sahib çıxa bildik.

Nəhayət, şüurumuzun dərinliklərində yuva salmış "el bir olsa...." həqiqətini dərk etdik. El bir oldu – həmrəy olduq. Xalq birləşərək "Ya ölüm, ya Qarabağ!" dedi. Dünyanın dörd bir tərəfində yaşayan soydaşlarımız "Vətən" dedi, hamı Azərbaycan amalı ətrafında səfərbər oldu. Həmrəylik duyğusunun yüksək həddi sayılan milli həmrəyliyimizlə azadlığımıza və müstəqilliyimizə qovuşduq. 1993-cü ildən başlayaraq taleyimizdə yaşanan dönüş də, bu günə qədər davam edən yüksəliş də və nəhayət, bizi xoşbəxt, qalib xalqa çevirən Vətən müharibəmizdəki zəfərimiz də məhz milli həmrəyliyimizin sayəsində mümkün oldu.

Yola saldığımız 2020-ci ilin son aylarında xalqın həmrəyliyindən doğan bu güc yenilməz dəmir yumruqda birləşib düşmənin başına endirildi. Bu həmrəyliyi yaşatmaq, onu daha da gücləndirmək, şüurumuzda və əməllərimizdə gələcəyə daşımaq Azərbaycanın daimi müstəqilliyini və xalqımızın daimi xoşbəxliyini təmin etməyin zəmanətidir. Bu həmrəylik gələcək qələbələrimizin də mötəbər zəminidir.

Zaman bir daha göstərdi ki, milli həmrəylik ümumxalq təəssübkeşliyidir. O, bir mədəniyyətdir. Həmrəylik dinləmək, başqalarına məxsus dünyagörüşünü və baxış bucağını bölüşmək, milli mənafeyimiz naminə ictimai amal yolunu seçmək, Vətən üçün düşünmək, el üçün çalışmaq mədəniyyətidir. Həmrəylik elə bir idealdır ki, az hallarda mümkün olur, ictimai-mədəni sferalarda daha çox gərəklidir. Amma bu "az"lar xalqın tarixi taleyində çox böyük rol oynayan "az"lardır və hər bir soydaşımızın qəlbində və şüurunda özünə yer tapan bu "az"ların cəmindən böyük bir AZƏRBAYCAN sevgisi yaranır.

Deməli, həmrəylik həm də məfkurəvi bir duyğudur – xalqa, dövlətə, yurda, bayrağa, himnə və nəhayət, insana və insanlığa olan sevgidir. Bu sevgi ilə də soydaşlarımız ilin son günündə ən xoş arzularla dolu nəzərlərini ana Vətənə yönəldir və Azərbaycanımızla fəxr edirlər.

Dünya azərbaycanlılarının müasir milli həmrəylik duyğularının kökündə hələ qədim Dədə Qorqud eposunda iz qoymuş yurd birliyi hissləri dayanır. "Çal qılıncını, Qazan xan, gəldim!" – deyə dar gündə bir-birinin harayına yetişən ulu babalarımızın yurd birliyi hissləri böyüyüb milli həmrəyliyə çevrilməsəydi, XX əsrin son onilliyində dünyanın ən mürəkkəb geosiyasi məkanlarından birində– Cənubi Qafqaz – Xəzəryanı bölgədə Azərbaycan dövlətini yaratmaq, qorumaq və beynəlxalq birliyin suveren subyektinə çevirmək mümkün olmazdı.

Zaman-zaman genetik yaddaşımızdan ayılıb bu günümüzə qovuşan birlik hissləri xalqımızı mübarizəyə qaldırmış və həmrəylik ideallarının yenilməzliyini bir daha sübut etmişdir. Ən yaxın keçmişimizdə – sovet ittifaqının çökdüyü, milli münaqişələrin kəskinləşdiyi, ermənilərin tarixi torpaqlarımıza haqsız iddia qaldırdığı, millətimizin saxta ittifaqda təkləndiyi sarsıntılı günlərdə– 1989-cu il dekabrın sonunda Azərbaycan xalqı tarixi ərazisinin bölünməsinə "yox!" deyərək SSRİ-nin və İranın Naxçıvandan keçən sərhədi boyunca böyük yürüşə başladı. Birlik idealının hakim kəsildiyi xalq Araz çayının hər iki sahilində tikanlı dəmir məftilləri qırıb sökdü, Azərbaycanın Şimalı və Cənubu arasındakı sərhəd direklərini yerindən oynatdı. İki əsr davam edən əsarət xofuna sinə gərən azərbaycanlılar həftələrlə sərhəd zolağında toplaşaraq, birlik şüarları səsləndirdilər. Arazı keçərək əl-ələ tutdular, milli həmrəyliyin görkünü yaratdılar.

Bu möhtəşəm milli birlik aktını tarixiləşdirmək missiyasını isə böyük siyasətçi Heydər Əliyev həyata keçirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev 1991-ci ilin 16 dekabrında xalqımızın milli həmrəylik coşğusunun sərhədləri dağıdıb dünyaya qanad açdığı 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ilkin layla və bayatılarımızdan başlayaraq, ayrıca xalq və dövlət səviyyəsinə çatmağımızın təsdiqi olan "Kitabi-Dədə Qorqud"dan keçərək klassik fikir abidələrimizdə ali mənəvi keyfiyyət kimi bəslənilib yetişdirilən milli bütövlüyün bu yenilməz təməli üzərində həmin birliyin çağdaş ideologiyasını – azərbaycançılıq ideologiyasını irəli sürdü və milli həmrəylik salnaməmizin XXI əsr səhifəsini yazdı.

Müstəqillik illərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər dəfə planetimizin ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizi böyük milli idealımız – Azərbaycan və azərbaycançılıq ideologiyası ətrafında birləşdirən nəhəng bir virtual məkan–mənəvi cəhətdən bütövləşən Azərbaycan yaradır. Azərbaycan Respublikasının müstəqilliyinin 29 ili həm də məhz həmin dövrdən etibarən dünya azərbaycanlılarının getdikcə daha yüksək səviyyədə təşkilatlanması tarixi olmuşdur.

Əvvəlki 12 ildə ümummilli lider Heydər Əliyevin, son 17 ildə isə Prezident İlham Əliyevin rəhbərliyi altında dünya azərbaycanlılarının təşkilatlanması– dövlətimizin yürütdüyü milli siyasətin mühüm tərkib hissəsi olmuşdur. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ulu öndərin dünya azərbaycanlılarının həmrəylini gücləndirmək, milli-mənəvi birliyinə nail olmaq arzusunun gerçəkləşməsi yolunda səmərəli fəaliyyətini ildən-ilə genişləndirir. Bütün bu məqsədyönlü işlərin nəticəsində Dünya Azərbaycanlılarının Həmrəylik Gününü 70-dən çox ölkədə 50 milyonluq dünya azərbaycanlılarının və beynəlxalq aləmdəki dostlarımızın-tərəfdarlarımızın bayram etməsi artıq bir ənənə halını almışdır.

Azərbaycan dövlətinin milli siyasətinin bu istiqamətdəki əsas strategiyası ölkədə və xaricdə yaşayan azərbaycanlıların dünya miqyaslı həmrəyliyinə nail olmaq, bu həmrəyliyi dövlətimizin daha da qüdrətlənməsinə, onun milli maraqlarının beynəlxalq səviyyədə qorunmasına, həmvətənlərimizin mədəni-siyasi hüquqlarının müdafiəsinə, soydaşlarımızın dünyanın hər yerində öz milli xüsusiyyətlərini nəinki saxlamasına, həm də inkişaf etdirməsinə səfərbər etməkdən ibarətdir. Biz fəxr edə bilərik ki, Azərbaycandan kənarda – başqa ölkələrdə yaşayan və çalışan azərbaycanlıların mütləq əksəriyyəti öz ata yurduna bağlıdır.

Azərbaycan Respublikasının suverenlik əldə etməsi, son 3 onillikdə böyük inkişaf yolu keçməsi, müstəqil siyasət yeritməsi, qlobal siyasi, iqtisadi və mədəni inteqrasiyanın mərkəz dövlətlərindən birinə çevrilməsi və bütün bunların nəticəsi olaraq, dünyanın hər bir yerində yaşayan yurddaşlarımızla Vətən arasında sıx münasibətlərin qurulması, onlar üçün burada hər cür əlaqələri inkişaf etdirməyə şəraitin yaradılması, Vətən naminə beynəlxalq miqyasda çalışmalarına dövlətimiz tərəfindən güclü stimul verilməsi, əlbəttə ki, respublikamızda və ya başqa bir ölkədə məskunlaşmasından asılı olmayaraq, hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi və milli qürur hissi yaradır.

Azərbaycan naminə həmvətənlərimizin birləşib güclənmə zərurəti, həm də müstəqil dövlətimizin qarşılaşdığı ən böyük problemdən – ermənilərin torpaqlarımızın bir hissəsini işğal etməsi və bununla da beynəlxalq hüququn müvafiq normalarını cinayətkarcasına pozması faktından qaynaqlanır. Məhz bu məsələdə dünya azərbaycanlılarının maraqları mütləq şəkildə birləşdi və burada heç bir fikir ayrılığına yer olmayıb. Həmin maraqların təmin olunmasına yönəlmiş təşəbbüslərin vahid bir məqsəd ətrafında səfərbər edilməsi son illərdə dünya azərbaycanlılarının fəaliyyətinin əsas yönünü təşkil edir. Bu yaxınlarda qazandığımız tarixi Qarabağ zəfərimizdə, şübhəsiz, dünyada yaşayan soydaşlarımızın milli həmrəyliyi, maddi və mənəvi dəstəyi də önəmli rol oynadı.

Bundan sonra belə ümummilli hədəf və təşəbbüslərin əlaqələndirilməsi daha yetkin və kəsərli formada aparılmalıdır. Dərindən duyduğumuz bu zərurət səbəbindən son illərdə Azərbaycan diasporu özünün strateji məqsədlərində xeyli irəli getmiş, dünyanın ən təhlükəli diasporlarından biri olan, yalnız dar millətçilik maraqlarından çıxış edən erməni diasporuna layiqli cavab verə biləcək qədər güc toplamışdır. Bu, həm də strateji planda ona görə gərəkli olmuşdur ki, Azərbaycan öz torpaqlarını, nəyin bahasına olursa-olsun, işğaldan azad etdiyi təqdirdə beynəlxalq siyasət, hüquq və diplomatiya müstəvisində erməni arsenalını neytrallaşdırmaq və dağıtmaq mümkün olsun. Vətən müharibəsi günlərində dünyanın əksər qitələrində soydaşlarımızın apardığı informasiya dəstəyi aksiyaları məhz bu səbəbdən yüksək səviyyədə gerçəkləşdirildi.

İllərin qovuşduğu – köhnə ilin tarixə çevrildiyi, Yeni ilin həyatımıza daxil olduğu məqamda ölkəmizin əhalisi və dünyadakı soydaşlarımız son bir ilin uğurlarına da mütləq nəzər salırlar. Azərbaycanın son 17 ildə əldə etdiyi iqtisadi uğurlar, dayanıqlı iqtisadi inkişaf onun beynəlxalq arenada yeni model dövlət kimi özünəməxsus yer tutmasına səbəb oldu və bütün soydaşlarımıza haqlı öyünc yaşatdı. Dünyanın aparıcı informasiya vasitələri də ölkəmizdə baş tutan bənzərsiz tərəqqi tendensiyasını ən maraqlı detalları ilə önə çəkərək Azərbaycan haqqında ətraflı məlumatlar yaymağa başladı. Azərbaycanın qısa zaman kəsiyində dünyanın sürətlə inkişaf edən ölkələri sırasına daxil olması, ümumdaxili məhsulun, sənaye istehsalının dəfələrlə artımı, enerji gəlirlərinin ölkənin çoxşaxəli inkişafına yönəldilməsi, insan kapitalının dövlətin prioritet siyasət xəttinə çevrilməsi Azərbaycanı yeni tipli dövlət kimi bütün dünyaya tanıtdı.

Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlar onu beynəlxalq siyasi sistemin ən fəal subyektlərindən birinə çevirdi. Azərbaycan özünün və daxil olduğu regionun təhlükəsizlik maraqlarını qoruya bilmək, cürbəcür təhdid və avantüraları zərərsizləşdirmək bacarığını nümayiş etdirir. Əvvəlki illərdə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi onu dünyanın idarə olunmasında bilavasitə iştirak edən bir dövlətə çevirmişdisə, ölkəmiz Qoşulmama Hərəkatının fəal üzvü kimi 2 ildir bu beynəlxaq formatın sədridir.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində həyata keçirilən ardıcıl tədbirlər bütün bu müddətdə Prezident İlham Əliyevin siyasətinin prioritet istiqamətini təşkil etdi. Avropa Şurası, Avropa Parlamenti kimi mötəbər təşkilatlar tərəfindən Ermənistanın təcavüzkar dövlət kimi tanınması, bir çox dövlətlər tərəfindən Xocalı faciəsinin soyqırım faktı kimi qəbul edilməsi Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsaslanan haqlı mövqeyini bir daha təsdiq etmiş oldu.

Azərbaycanın bu illər ərzində öz ədalətli mövqeyindən bir addım belə geri çəkilməməsi, Ermənistanın bu problem üzərindən spekulyasiya manevrlərinin sıfıra endirilməsi, böyük iddialarının girovuna çevrilmiş işğalçı-separatçı rejimin beynəlxalq miqyasda küncə sıxışdırılması xarici siyasətimizin qələbəsi oldu. Bütün bu siyasi-diplomatik zəmində, nəhayət, Azərbaycan BMT TŞ-nin Ermənistanın ölkəmizin ərazilərini işğal etməsi barədə 26-27 il əvvəl qəbul etdiyi qətnamələrinin icrasını döyüş meydanında özü gerçəkləşdirdi.

Prezident İlham Əliyev 2018-ci ilin prezident seçkiləri zamanı sosial-iqtisadi islahatlarla yanaşı, siyasi islahatların da aparılmasının vacibliyini qeyd etmişdi və seçkilərdən sonra dövlət quruculuğu sahəsində demokratik proseslərin dərinləşməsi ilə bağlı ciddi addımlar atdı. Həmin seçkilərdən sonra ölkəmizin həyatında baş verənlər ölkə başçısı tərəfindən aparılan siyasətin düşünülmüş və dəqiq nəticəyə hesablanmış layihələrə əsaslandığını və bu proseslərin hər bir vətəndaşın şəxsi həyatında öz müsbət təzahürünü tapdığını göstərir.

İqtisadi-sosial sahədə daha öncədən başladılmış genişmiqyaslı islahatlar seçkilərdən keçən 2 il ərzində bir sıra hökümət qurumlarının – nazirliklərin və komitələrin fəaliyyətində əsaslı dönüş yaratdı. Yüz minlərlə mövcud iş yerlərinin leqallaşdırılması və eyni zamanda, yüz minlərlə yeni iş yerlərlərinin yaradılması dövlət büdcəsinə daxil olan vəsaitlərin həcmini əhəmiyyətli dərəcədə artırdı. Nəticə isə gözlənildiyi kimi xalqın mənafeyinə xidmət etdi: minimum əmək haqqı artırıldı, pensiyaların və aztəminatlı ailələrə göstərilən sosial yardımın həcmi artırıldı, bütün ölkə ərazisində icbari tibbi sığortaya keçid baş tutdu. Kənd təsərrüfatının, yol-nəqliyyat infrastrukturunun, dövlət xidmətləri sektorunun genişləndirilməsi və müasirləşdirilməsi əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Builki parlament seçkiləri siyasi islahatların yeni mərhələsinə başlanğıc verdi. Ölkənin müxtəlif siyasi fikir cərəyanlarını təmsil edən çoxsaylı namizədlərin böyük həvəslə iştirak etdiyi parlament seçkiləri indiyədək görünməmiş siyasi fəallıq şəraitində keçdi. Seçkilərin nəticələrinin təsdiq olunması prosesi də yeni metodologiyaların tətbiqi ilə yadda qaldı. Səsvermə və səslərin sayılması proseslərində seçki qanunlarının pozulması iddia olunan dairələrin nəticələri ləğv olundu və beləliklə, nəticəsi şübhə doğuran seçki dairələrində vətəndaşlara təkrar seçkilərdə iştirak edərək öz iradələrini tam azad və demokratik şəraitdə yenidən ifadə etmək üçün fürsət yaradıldı.

İslahatlar bu gün də uğurla davam etdirilir. Parlament seçkilərindən sonra ölkə rəhbərinin təşəbbüsü ilə başlanan geniş siyasi dialoq mühiti cəmiyyət daxilində qarşılıqlı etimadın güclənməsinə xidmət etməklə bərabər, həm də müxalifət və iqtidar qüvvələri arasında münasibətlərin qarşıdurma rejimindən əməkdaşlıq platformasına keçməsinə bir çağırışdır. Qərəzli qarşıdurmanın heç bir halda və cəmiyyətin heç bir təbəqəsinə fayda gətirməyəcəyini başa düşən siyasi qüvvələr bu çağırışa cavab olaraq ölkəmizin milli maraqlarına xidmətə köklənmiş əməkdaşlığa qoşuldular.

Bu gün bütün dünya pandemiyaya qarşı gərgin mübarizə şəraitində yaşayaraq post-pandemiya dövrünün çağırışlarına hazırlaşmaqdadır. Bütün ölkələr üçün gözlənilməz olan qlobal pandemiyanın ilk günlərindən başlayaraq Prezident İlham Əliyevin sərəncamları ilə atılan ardıcıl addımlar cəmiyyətimizin bu sınaqdan da az itkilərlə çıxmasına zəmin yaradır. Fors-major şəraiti həm də hökümətin bütün qurumlarının fövqəladə rejim vəziyyətində səmərəli fəaliyyət göstərə bildiyini və qarşımıza çıxa biləcək bütün maneələri birlikdə uğurla dəf etməyə qadir olduğumuzu göstərdi.

Respublikalarının reginal və qlobal siyasi arenada güclənməsi və onların arasındakı müttəfiqliyin ümumtürk və region dövlətləri üçün örnəyə çevrilməsi türk dünyasının bütünləşmə prosesinə ideya stimulu verməkdədir. Türkiyə və Azərbaycanın səsinə digər qardaş türk respublikalarından səs verildikcə, dünya türk dövlətlərinin birliyi öz sarsılmaz mövqeyini daha əsaslı şəkildə nümayiş etdirə biləcəkdir.

Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin kəlamını yadda saxlayırıq: "Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır".

Son illərdə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən və təcavüzkarı buxovlayacaq yeganə güc mərkəzi isə məhz Azərbaycan Ordusu və Azərbaycan Prezidentinin erməni işğalına qarşı güzəştsiz mövqeyi idi. Azərbaycan xalqının yeganə ümid yeri ölkə başçısının bütün işğal olunmuş ərazilərimizin azad olunması üçün dəfələrlə bəyan etdiyi siyasi iradəsi və qətiyyəti idi. Odur ki, Azərbaycan əsgəri möhtəşəm həmlələri, sarsıdıcı zərbələri ilə işğalçı ordunu səngərlərini qoyub qaçmağa məcbur etdi.

12-16 iyul Tovuz hadisələrindən dərhal sonra Türkiyə – Azərbaycan birgə hərbi təlimlərinin başlanması, Türkiyə dövlətinin yüksək səviyyəli siyasi-hərbi rəhbərlərindən ibarət nümayəndə heyətinin Vətən müharibəsi zamanı ölkəmizə gəlişləri və Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin istənilən addımı atmağa hazır olduğunun bəyan edilməsi Azərbaycan xarici siyasətinə güc verdi, onun daha kəsərli olmasını təmin etdi.

Bu yolda bütün Azərbaycan xalqı Azərbaycan Prezidenti ətrafında monolit ümumxalq birliyi nümayiş etdirdi. Hər bir Azərbaycan vətəndaşı işğal olunmuş torpaqlarımızın azad və düşmən təcavüzündən müdafiə olunması üçün müqəddəs savaşa canı və qanı ilə hazır oldu. Bu müqəddəs savaşda Vətən torpaqlarının azad olunması yolunda canından keçmiş igid əsgərlərimiz bu günün və gələcəyin əbədi qəhrəmanlarıdır. Onlar torpağımızın hər qarışı üçün canlarından keçməyə hər an hazır olduqlarını öz şücaətləri ilə göstərdilər və ölməzliyə qovuşdular.

Nəhayət, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu dünya hərb elminin səhifələrinə qızıl hərflərlə yazılan yüksək döyüş qabiliyyəti və ən müasir hərb taktikası və strategiyası nümayiş etdirdi. Şanlı ordumuz bir milyondan çox qaçqın və köçkünlərin doğma torpaqlarını işğaldan azad etdi, uzun illər ərzində sonu görünməyən bir münaqişə ocağında sülh yaratdı. Hazırda dövlətimiz 30 ildən bəri Vətənində məcburi köçkün taleyi yaşayan soydaşlarımızın tezliklə öz evlərinə qayıtması üçün lazım olan bütün addımları atmaqdadır. Şübhəsiz bu prosesin ağrısız keçməsində və Qarabağın yenidən dirçəldilməsində xaricdə yaşayan soydaşlarımız da fəal iştirak edəcəklər.

Bu gün diasporumuzun əsas məramı Azərbaycan həqiqətlərini özünün gerçək dəyərində dünyaya daha geniş və dərindən təqdim etməkdən və qələbəmizin nəticələrini möhkəmləndirmək üçün yeni sınaq və mübarizələri proqramlaşdırmaqdan ibarətdir. Həmvətənlərimiz beynəlxalq siyasətin ön cinahında yer alan Azərbaycan Respublikasının zəfər və nailiyyətlərindən fərehlənərək, onun tərəqqisi naminə daha sıx birləşmək, güclənmək, fəaliyyətlərini ən zəruri və məqsədəyönlü istiqamətlərdə qurmaq və irəlilətmək üçün bu gün real tarixi şans əldə etmişlər. Bu imkanlardan yararlanmaqla, onlar qarşıdakı illərdə doğma Vətən torpağına ayaq basanda, daha qüdrətli Azərbaycanla nəfəs-nəfəsə dayanacaq, qürur duyacaq, "Bu inkişafda, çiçəklənmədə mənim də payım var!" – deyə biləcəklər.

Yola saldığımız 2020-ci ildə bizlərlə bərabər müstəqil Azərbaycanımız da bir yaş büdüdü. Dövlətimiz bir qədər də möhkəmləndi, ən vacibi isə 30 ildən bəri itirdiyi ərazi bütövlüyünü şəhidlərin qanı, qazilərin sağlamlığı, döyüşçülərimizin igidliyi ilə bərpa etdi. Tariximizə qızıl hərflərlə yazılan və gələcək nəsillərimiz tərəfindən böyük fəxarət və qürur hissi ilə xatırlanacaq bir il yaşadıq. Ən böyük xəyallarımız gerçəkliyə çevrildi, ən müqəddəs arzumuza qovuşduq – Vətənimiz azad oldu. Son 30 ildə ilk dəfə Yeni İlə doğma Qarabağımızla birlikdə addımlayırıq.

İki təqvim ilinin qovuşduğu məqamı, eyni zamanda, milli həmrəylik gününü qeyd edən 50 milyonluq soydaşlarımızı hər iki əziz bayram münasibətilə səmimi təbrik edirəm. Arzu edirəm ki, Qarabağ probleminin birdəfəlik həllindən sonra, Yeni ildə xalqımızın yerdə qalan ağrılı problemlərinə də son qoyulsun. Hər bir soydaşımız ana Vətənə xidmətdə yeni uğurlar qazansın! Qoy üçrəngli bayrağımız işğaldan azad edilmiş Qarabağımızda olduğu kimi, dünyanın hər yerində qazanacağımız qələbələrin də başı üstündə dalğalansın!

Azərbaycanın diaspor təşkilatlarının sayı artır, onların fəaliyyətinin keyfiyyəti yüksəlir. Dünyada vaxtaşırı keçirilən nümayişlər, etiraz piketləri, tədbirlər, konfranslar göstərir ki, biz, doğrudan da, güclü diaspor təşkilatları yarada bilmişik. Bu, bizim gücümüzü daha da artırır, xaricdə yaşayan azərbaycanlıları öz Vətəninə daha sıx bağlayır. Dünya azərbaycanlılarının həmrəyliyi hazırda özünü təkcə emosional hiss və duyğularda deyil, həm də daha çox real məzmuna malik milli-siyasi birlikdə, əməli addımlarda və konkret nəticələrdə göstərir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Cavanşir FEYZİYEV,
Milli Məclisin deputatı,
fəlsəfə doktoru